# Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) və mən, hər ikimiz də cünub olduqda bir qabdan yuyunardıq. Mən heyz olduqda isə, mənə (göbəkdən dizlərə qədər) örtünməyi əmr edər və mənimlə (cinsi əlaqə olmadan) yaxınlıq edərdi

Möminlərin anası Aişədən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) və mən, hər ikimiz də cünub olduqda bir qabdan yuyunardıq. Mən heyz olduqda isə, mənə (göbəkdən dizlərə qədər) örtünməyi əmr edər və mənimlə (cinsi əlaqə olmadan) yaxınlıq edərdi. O, (məsciddə) etikafda olarkən başını mənə tərəf çıxarardı (Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) evi məscidə bitişik idi) və mən də heyzli olduğum halda onun başını yuyardım.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Möminlərin anası Aişə (Allah ondan razı olsun) Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) ilə olan bəzi xüsusi halları haqqında xəbər vermişdir. Bunlardan biri də: O, Peyğəmbərlə (Allahın salavatı və salamı onun üzərinə olsun) birlikdə cənabət qüslu alıb, onunla birlikdə bir qabdan su götürərdi. O (Allahın salavatı və salamı onun üzərinə olsun), Aişə anamız (Allah ondan razı olsun) heyzli olduğu zaman onunla yaxınlıq etmək istədikdə, ona göbəyindən dizinə qədər bədənini örtməyi əmr edər və onunla cinsi əlaqəyə girmədən yaxınlıq edərdi. Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) məsciddə etikaf edərkən başını Aişəyə tərəf çıxarar və o, da evində heyzli ikən onun başını yuyardı.

https://sunnah.global/hadeeth/az/show/3476